# Son hektarların taxılı biçilir

«Kənd təsərrüfatı ili»ndə Qəbələ rayonunda aqrar sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsi xeyli genişləndirilmiş, bol məhsul üçün zəmin yaradılmışdır. Xüsusilə kənd əməkçiləri ərzaq məhsulu olan taxıl istehsalının artırılmasına daha çox əhəmiyyət vermişlər. Bu ilin məhsulu üçün 21 min hektardan artıq sahədə taxıl əkilmişdir. Əkin zamanı keyfiyyətli və məhsuldar toxum sortlarından istifadə edilmiş, sahələrdə suvarma və aqrotexniki qulluq işləri vaxtlı -vaxtında görülmüşdür. Nəticədə taxıl zəmilərində keçən ildəkindən fəqli olaraq bol məhsul yetişmişdir. Hazırda Qəbələdə taxıl zəmilərinin son hektarları biçilir.

Rayon statistika idarəsindən aldığımız son məlumata əsasən arpa biçini başa çatmışdır, hər hektar arpa sahəsində məhsuldarlıq 27,4 sentner, buğda zəmilərində isə 26,6 sentner olmuşdur. Ümumillikdə rayon üzrə taxıl zəmilərindən 22 min tona yaxın arpa, 33 min tona yaxın buğda toplanmışdır. Son məlumata görə hələ biçiləsi 1500 hektara qədər buğda sahələri qalır.

Taxılın tez və itkisiz toplanılmasında «Həsrət» fermer təsərrüfatı, «Gilan» MMC-nin, Çarxana, Qaradeyin, Məlikli, Yenikənd, Hacıalılı, Çuxur Qəbələ kəndlərinin və Nic qəsəbəsinin əməkçiləri fərqlənmişlər. İndi adları çəkilən qəsəbə və kənd əməkçiləri sahələrdən küləşi toplamaqla məşğuldur. Ümumiyyətlə, bu il rayon taxılçılarının əməyi hədər getməmişdir, onlar öz zəhmətlərinin bəhrəsini dərmişlər.

**«Qəbələ».**

# Doğma ölkəmiz-

## Ölkədə ümumi daxili məhsul 5,3 faiz artıb

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə cari ilin yanvar-may aylarında ölkədə 21,3 milyard manatlıq məhsul istehal olunub. Bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 5,3 faiz çoxdur.

Əlavə dəyərin 36,4 faizi sənayedə, 13,7 faizi tikinti kompleksində bir o qədəri də ticarət, turistlərin yerləşdirilməsi və ictimai-iaşə xidmətlərində, 6,1 faizi nəqliyyatda, 2 faizi rabitədə, 3,3 faizi kənd təsərrüfatında, 15,7 faizi digər sahələrdə yaradılmışdır. Qeyri-neft saktorunda 7,6 faiz, neft-qaz sektorunda 2,4 faiz artım olmuşdur. Ölkənin sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 10,8 milyard manatlıq, yaxud keçən ilin müvafiq dövru ilə müqayisədə 3,7 faiz çox məhsul istehsal olunub. Bir sıra ayrı-ayrı sahələrdə istehsalın artımı daha yüksək olmuşdur.

İlin ötən 5 ayında ölkə üzrə əsas kapitala 6 milyard 416,3 milyon manat (2014-cü ilin müvafiq dövründəkindən 3,7 faiz çox) vəsait yönəldilmişdir.

## Sənayeçilər və Sahibkarlar Beynəlxalq Konqresi Rəyasət Heyətinin növbəti iclası Bakıda keçirilib

Sənayeçilər və Sahibkarlar Beynəlxalq Konqresi (SSBK) Rəyasət heyətinin iş planına uyğun növbəti iclası Bakıda keçirilib. Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək Heydər Əliyevin və görkəmli oftalmoloq Zərifə Əliyevanın abidələrini ziyarət etmiş, məzarları üzərinə əklil və gül dəstələri düzmüşlər. Sənayeçilər və sahibkarların Beynəlxalq Konqresi Şurasının sədri, Moldova Sənayeçiləri və Sahibkarları Milli Konqresinin prezidenti Vasili Tarlev tədbiri açaraq iclasa ev sahibliyi edən Azərbaycan Sahibkarlar Konfederasiyasının təşkilatçılığını yüksək qiymətləndirmişdir.

Tədbirdə Vasili Tarlev, Azərbaycan iqtisadiyyat və sənaye nazirinin müavini Sahib Məmmədov, SSBK Şurası sədrinin müavini, Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və başqaları çıxış edərək tərəflər arasında əməkdaşlığın möhkəmləndirilməsindən danışmış, bir sıra müqavilələr bağlanmış, mövcud problemləri müzakirəyə çıxarmışlar.

Qeyd edilməlidir ki, SSBK 1992-ci ildə yaradılmış və üzv ölkələri təmsil edən müəssisələrin iqtisadi, sənaye potensialının gücləndirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində səmərəli iş aparır.

## GUAM Ticarət və Nəqletməyə Yardım Layihəsinin həyata keçirilməsi üzrə Rəhbər Komitənin 22-ci iclası

Bu günlərdə Bakıda Ümumdünya Gömrük Təşkilatının Potensialının Gücləndirilməsi üzrə regional Ofisində GUAM Ticarət və Nəqletməyə Yardım Layihəsinin həyata keçirilməsi üzrə Rəhbər Komitənin 22-ci iclası keçirilmişdir. Tədbirdə GUAM üzvü olan ölkələrin--Azərbaycan Gürcüstan, Ukrayna və Moldavanın nümayəndə heyətləri iştirak edib.

İclasda nümayəndə heyətləri rəhbərlərinin çıxışları dinlənilib, GUAM Ticarət və Nəqletməyə Yardım Layihəsinin həyata keçirilməsi üzrə Rəhbər Komitənin protokollarının, eyni zamanda sözügedən layihənin üzv ölkələrdə iclası ilə bağlı hesabatları müzakirə olunub və kömruk prosedurları üzrə bir sıra protokolar imzalanıb.

## Yeni qeydiyyatdan keçmiş 17 dini icmaya şəhadətnamələr təqdim edilib

İyulun 8-də Dini Qurumlarla iş üzrə Dövlət Komitəsində yeni qeydiyyatdan keçmiş 17 dini icmaya şəhadətnamələr təqdim edilib. Toplantıda Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış etmiş, yeni qeydiyyatdan keçmiş dini icmaların sədrlərinə müvafiq tövsiyələrini vermişdir.

Dini icma sədrləri çıxış edərkən dini sahəyə dövlət tərəfindən və dini komitə tərəfindən göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər. Sonra Ramazan ayı münasibətilə toplantı iştirakçsılarını təbrik edən komitə sədri qeydiyyat şəhadətnamələrini dini icma sədrlərinə təqdim etmişdir..

**N. ATAKİŞİYEV.**

# Məktəblilərimiz “Meşələri qoruyaq” gənc meşəçilərin IV Respublika müsabiqəsinin qalibidir

Təhsil nazirliyi respublika ekoloji tərbiyə və təcrübəçilik mərkəzinin “Meşələri qoruyaq” devizi altında gənc meşəçilər arasında keçirdiyi IV respublika müsabiqəsinin qaliblərinin mükafatlandırma mərhələsi keçirilib.

Təhsil Nazirliyinin əlaqədar məsul işçilərinin və ekspertlərin iştirak etdiyi tədbirdə qeyd edildi ki, müsabiqənin məqsədi uşaq və gənclərin meşəsalma sahəsində biliklərini artırmaqla onların ekoloji sahədə dünyagörüşlərinin, ətraf mühitə qayğıkeş münasibətlərin formalaşmasına stimul verməkdən, eyni zamanda meşələrin qorunması, bərpası və davamlı istifadəsi sahəsində uşaq və gənclərə xüsusi bilik, bacarıq və vərdişlərin öyrədilməsindən ibarətdir.

Müsabiqəyə yekun mərhələdə 70 layihə təqdim olunub. Layihələrdə məktəblilər tərəfindən meşələrin əhəmiyyəti, fauna və florası, nadir bitki və heyvan növlərinin, təbiət abidələrinin qorunması, meşələrin ekoloji vəziyyətinə antropogen təsirin öyrənilməsinə dair ekoloji tədqiqatların nəticələri, ekoloji problemlərin həlli yolları əks etdirilmişdir.

Qaliblər arasında Qəbələ rayon Vəndam qəsəbə 1 saylı tam orta məktəbin IX sinif şagirdləri Gülər Hacıbəyli, Elyanə Qocayeva da olmuşlar. Onların təqdim etdiyi, “Qəbələ meşələrinin florası” layihəsi mükafata layiq görülüb. Onlar təhsil nazirinin əmri ilə “Sertifikat”la təltif olunublar. Layihədə zəngin olan Qəbələ meşələrinin flora müxtəlifliyi, nadir bitkilər, onların qorunması və bu sahədə məktəblilərin iştirakı, məktəbin təcrübə sahəsində yeni salınmış bağçada görülmüş işlər geniş işıqlandırılmışdır.

**Sadiq SADIQOV,**
**Məktəbin müəllimi,**
**layihə rəhbəri, “Ekologiyanın qorunmasına kömək” ictimai birliyinin sədri.**

# Tarix-diyarşünaslıq muzeyi bu gün

Hər il olduğu kimi Qəbələ rayonuna yerli və xarici turistlər gəlməkdədir. İlk olaraq çox zaman onların baş çəkdikləri yer Qəbələ Tarix-Diyarşünaslıq Muzeyidir. Qeyd edək ki, bütün qonaqları qarşılamaq, onlara yüksək səviyyədə muzey xidməti göstərmək üçün bütün kollektiv var qüvvəsi ilə çalışır. Hər bir qonağa xatirə olaraq muzeyin xüsusi hədiyyəsi bağışlanır.

6 iyul 2015-ci il tarixdə Qəbələnin tarixi ilə əlaqədar muzeydə geniş tədbir keçirilmişdir. Muzeyin elmi işçisi İlhamə Seyidova “Tarixi səhifələyərkən ”adlı elmi araşdırmalardan ibarət mühazirə söyləmişdir.

Tədbir zamanı tarixi faktlara aydınlıq gətirən muzey eksponatlarına baxış keçirilmişdir.

**«Qəbələ».**

# İftar niyə xurma ilə açılır?

Quranda adı çəkilən 3 meyvədən biri olan xurma ərəb dünyası üçün “səhra çörəyi” simvoludur. Məhəmməd peyğəmbər s.ə.v. ilk Ramazanın ilk iftarını xurma ilə açdı və bunu tövsiyə etdi: “Mümkün olduğu qədər sübh yeməyində xurma yeyin”. Təbii şirniyyat olan xurma insana güc verir, böyrək, ürək, qaraciyəri möhkəmləndirir. Bağırsaqlarda faydalı bakteriyaların inkişafına yardım edir. Quru xurmada 70% şəkər olur ki, bu da istənilən meyvədən çoxdur.

Xurmanın tərkibi: şəkər, zülal, karbohidrat, dəmir, maqnezium, fosfor, A, B1, B2 vitaminləridir. Orucun su və xurma ilə açılması saatlarla ac olan beyin, mədə və bağırsaqların hazırlanması, özünə gəlməsi üçün ən ideal variantdır. Məhz xurma bağırsaqları, ümumilikdə selikli qişanı iftar zamanı yemək qəbuluna hazırlayır, normal fəaliyyətə kömək edir. Xurma damarları yumşaldır, sinir hüceyrələrini lazım olan qlükoza ilə təmin edir. Xurma qəbizlik, həzm pozğunluğu, ürək bulanma, iştahasızlıq kimi problemlərə çözümdür.

Xurma antioksidantdır. Bu da xərçəng hüceyrələrinə qarşı müdafiə qabiliyyətini artırır. İnsan ac olarkən dili üzərində, ağız boşluğunda, mədə yolu və bağırsaq qişasında bakteriya dolu ərp yaranır, orqanizm təmizlənir. Əgər insan başqa ərzaqla iftarı dərhal açarsa, bu, toksin maddələr elə orqanizmdə qalır, mədəyə düşərək, bədəndən ixrac olmur; amma xurma və su bu zərərli maddələri özünə hopdurur və yenidən orqanizmə yayılmasına imkan vermir. Ona görə əsrlər keçsə də xurma iftar süfrəsindəki şah yerini qoruyub saxlayır.